# AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

## Botanika İnstitutu

https://botany.az/

Azərbaycan Respublikasında bitkilər aləmini öyrənən geniş profilli elmi mərkəz kimi tanınan Botanika İnstitutu rəsmi bir qurum kimi 1936-cı ildə SSRİ Elmlər Akademiyası Zaqafqaziya filialının Azərbaycan botanika bölməsinin bazasında təsis edilmişdir. 1999-cu ilə qədər Mərdəkan Dendrarisi (hazırki AR ETN Dendrologiya İnstitutu), 2000-ci ilə qədər Nəbatat bağı şöbəsi (hazırki Mərkəzi Nəbatat Bağı Publik hüquqi şəxs), 2016-cı ilə qədər Bioloji proseslərin fundamental problemləri şöbəsi (hazırki AR ETN Molekulyar Biologiya və Biotexnologiya İnstitutu) Botanika İnstitutunun nəzdində inkişaf etmiş və fəaliyyət göstərmişdir.

Azərbaycan Respublikası Prezidentinin 28 iyul 2022-ci il tarixli Fərmanına əsasən Botanika İnstitutu Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyinə verilmişdir.

Hazırda İnstitutun baş direktoru professor Səyyarə İbadullayeva, icraçı direktoru isə Şakir Qasımovdur.

**Əsas fəaliyyət istiqamətləri:**

İnstitutda 2 problem üzrə "Azərbaycanın bitki və göbələk biomüxtəlifliyinin transformasiya dinamikası, taksonomik təftişi, təbii və antropogen ekosistemlərdəki strukturunun sistematik-floristik və ekoloji-coğrafi təhlili, bioloji resurslardan səmərəli istifadə olunmaq üçün mühafizə vasitələrinin və texnologiyalarının inkişafı; Müxtəlif təbii və antropogen təsirlərə qarşı bitkilərin davamlılıq mexanizmləri, kənd təsərrüfatı bitkilərinin keyfiyyətinin yaxşılaşdırılması, çirklənmiş torpaqların remediasiyası, stress amillərə qarşı tolerant bitki növlərinin müəyyənləşdirilməsi" iş aparılır.

**Nəşr edilən elmi jurnallar:**

**1.** "Plant & Fungal Research" journal
(print ISSN 2617-8001 ; online ISSN 2664-5297)
https://plantfungalres.az/

**2.** "Azərbaycan Botanika" jurnalı (Azerbaijan Journal of Botany)

**İnstitutun tərkibində fəaliyyət göstərən müdafiə şurası:**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında qeydiyyat nömrəsi **ED 1.26** olan Dissertasiya şurası fəaliyyət göstərir.

**Elm Sahəsinin adı: Biologiya elmləri**

2417.01 – Botanika ixtisası
2432.01 – Bioloji ehtiyatlar ixtisası

**Şöbə və laboratoriyalar:**

**1.** Ali bitkilərin sistematikası və filogeniyası şöbəsi:

Ali bitkilərin ekologiyası və coğrafiyası laboratoriyası.

Flora və sistematika laboratoriyası.

**2.** Herbari şöbəsi.

**3.** Mikologiya və ibtidai bitkilər şöbəsi:

Alqologiya və lixenobriologiya laboratoriyası.

Eksperimental mikologiya laboratoriyası.

**4.** Geobotanika şöbəsi.

**5.** Bitki ehtiyatları şöbəsi.

**6.** Etnobotanika şöbəsi.

**7.** Eksperimental botanika şöbəsi.

**8.** Biomorfologiya və fitointroduksiya şöbəsi.

**9.** Toxum bankı şöbəsi.

## STATİSTİK MƏLUMATLAR

### Botanika İnstitutu

